# Pakistan Parlamenti Senatının və Milli Assambleyasının sədrləri Milli Məclisin Sədri Sahibə Qafarovaya Zəfər Günü münasibətilə təbrik məktubları ünvanlayıblar

**Pakistan İslam Respublikası Parlamenti Senatının Sədri Syed Yusuf Raza Gilani və Milli Assambleyasının Sədri Sərdar Ayaz Sadiq Milli Məclisin Sədri Sahibə Qafarovaya 8 Noyabr - Zəfər Günü münasibətilə təbrik məktubları ünvanlayıblar.**



Milli Məclisin Mətbuat və ictimaiyyətlə əlaqələr şöbəsindən verilən məlumata görə, məktublarda Pakistan Parlamenti Senatının və Milli Assambleyasının spikerləri Zəfər Gününün beşinci ildönümü münasibətilə spiker Sahibə Qafarovaya və Milli Məclisin üzvlərinə təbriklərini çatdırıblar.

Məktublarda bildirilib ki, bu əlamətdar gün Azərbaycan xalqının sarsılmaz ruhunun, möhkəmliyinin və əzminin sübutudur. Azərbaycan xalqının Prezident İlham Əliyevin uzaqgörən rəhbərliyi altında apardığı tarixi mübarizə nəticəsində Azərbaycanın suverenliyinin və ərazi bütövlüyünün bərpası tarixə əbədi olaraq həkk olunacaq əlamətdar nailiyyətdir.

Məktublarda deyilir ki, Ermənistanla münasibətlərdə son müsbət irəliləyişlər Cənubi Qafqazın bütün xalqları üçün sabitlik, qarşılıqlı əməkdaşlıq və ortaq rifah əsasında qurulmuş gələcəyə yenidən ümid verir.

Pakistan Parlamenti Senatının və Milli Assambleyasının sədrləri məktublarında iki ölkənin parlamentləri arasında əlaqələrin bundan sonra da inkişaf edəcəyinə əminliklərini bildiriblər, qardaş Azərbaycan xalqına tərəqqi və firavanlıq arzularını ifadə ediblər.

***"Azərbaycan"***

---

Azərbaycan.- 2025.- 6 noyabr (№237).- S.3.